# QURBAN BAYRAMINIZ MÜBARƏK!

Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 175 (8198) BAZAR, 11 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





"Bizim hamımızın bir vətəni var - bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

# Milli-mənəvi dəyərlər xalqın ən qiymətli sərvətidir



Ulu Öndər Heydər Əliyevin bu müdrik fikirləri bir daha təsdiq edir ki, xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilib. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatıb. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz şənlikləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Təbii ki, islam dininin də mənəvi dəyərlərimizin inkişafındakı rolunu qeyd etmək vacibdir. İslam dini təmizlik, düzlük, insanlıq kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərdir. Xalqımız Ramazan, Qurban bayramlarını da böyük təmtəraqla qeyd edir.

Xalqımızın keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yaranıb. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlayıb, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarıb. Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirib.

1993-cü ildə xalqın təkidli tələbindən sonra ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdan Ulu Öndər milli-mənəvi dəyərlərimizə yüksək həssaslıqla yanaşaraq bu sahədə misilsiz xidmətlər göstərib. "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyən dahi şəxsiyyət milli kimliyimizin, soykökümüzün, tariximizin qorunması, milli-mənəvi dəyərlərimizin yaşadılması uğrunda yorulmadan mübarizə aparıb.

Bu gün isə Ulu Öndərin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasətlə milli-mənəvi dəyərlərimiz qorunur, dünya miqyasında təbliğ edilir, gələcək nəsillərə çatdırmaq üçün mühüm tədbirlər həyata keçirilir. Dövlət başçısı milli-mənəvi dəyərlərimizin, dini irsimizin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə diqqət və qayğı göstərir.

Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamətlərdən biri olaraq qarşıya qoyduğu məsələlərdəndir. Azərbaycan dövlətinin mədəniyyət siyasəti islami dəyərlərə yeni prizmadan baxış kimi meyillərlə ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapmaqdadır.

Dövlət başçısı bu dəyərləri qiymətləndirərkən vurğulayıb ki, azərbaycanlılar öz milli, dini ənənələrinə çox bağlıdır, sadiqdir və milli dəyərlər gələcək inkişaf üçün xüsusi rol oynayır: "Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır".

Onu da əlavə edək ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də həyat tərzidir. Təsadüfi deyil ki, Prezidentin sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu, dünyada ilk dəfə olaraq irəli sürülən bir təşəbbüs idi. Prezident İlham Əliyev bunu belə qiymətləndirmişdi: "2016-cı ilə Multikulturalizm adını verməklə ilk növbədə biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik.

Ardı 5-ci səh.

# Sosial güvənliyin gücləndirilməsi həm də istehlak bazarında ədalətli qiymət siyasətinin təminatından keçir

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar müsbət nəticələr verməkdə davam edir. Bunun sayəsində yaranan imkanlar ilk növbədə sosial məsələlərin həllinə yönəldilir. Yeni iş yerləri açılır, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır, müasir səhiyyə, təhsil ocaqları istifadəyə verilir, xidmət növləri yaradılır.

İyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə də bu sahədəki uğurlar bir daha qeyd edilmişdir. Dövlət başçısı iqtisadiyyatımızın cari ilin 6 ayında 2,4, qeyri-neft sektorunun 3,2 faiz artdığını diqqətə çatdırmış, bu kursun gələcəkdə də davam etdiriləcəyini vurğulamışdır.

Cari ilin 6 ayında aqrar sektorda da rekord nəticələr əldə edilmişdir. İlin birinci yarısında kənd təsərrüfatı məhsulları istehsalında 13, o cümlədən bitkiçilikdə 25 faiz artım qeydə alınmışdır.

Bütün bunlarsa, qeyd etdiyimiz kimi, sosial məsələlərin həllinə, əhalinin rifah halının yaxşılaşmasına geniş imkanlar açır. Cari ilin əvvəlindən həyata keçirilən 2 sosial paket 4 milyondan çox insanın güzəranının yaxşılaşmasını nəzərdə tutur. İlin əvvəlindən pensiyalar 116 manatdan 200, minimum əməkhaqqı isə 130 manatdan 250 manata yüksəlib.

Qəbul edilən birinci sosial islahat paketi 3 milyon ölkə vətəndaşını əhatə edir. Bunun üçün dövlət tərəfindən çəkilən maliyyə xərci 1,6 milyard manatdır. Ümumilikdə həyata keçirilən iki sosial paketin dəyəri cari il üçün 2,3 milyard manat müəyyənləşdirilib. Növbəti il üçün isə bu rəqəm 3 milyard manata çatdırılaraq 4,2 milyon insanı əhatə edəcək. Onu da qeyd edək ki, minimum əməkhaqqının 2 dəfə, minimum pensiyanın isə 72 faizlik artımı nəticəsində ölkəmiz MDB məkanında sözügedən sahələr üzrə ön yerlərdədir.

Prezident İlham Əliyev müşavirədə əhalinin sosial rifahının dövlət üçün mühüm əhəmiyyət daşıdığını vurğulayaraq demişdir: "Biz əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir.

Ardı 5-ci səh.

# Xalqına və dövlətinə sadiq asayiş keşikçiləri

## Antimilli ünsürlərin Azərbaycanın daxili sabitliyinin təmin olunmasında müstəsna rolu olan polisə qarşı qarayaxma kampaniyası iflasa məhkumdur

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda bu gün, demək olar ki, həyatın bütün sahələrində böyük uğurlar qazanılır. Azərbaycanın iqtisadi qüdrətinin yüksəlişi beynəlxalq aləmdə də etiraf olunur.

Ölkədə demokratik təsisatlar, insan hüquqları, söz və mətbuat azadlığı və ən əsası, sabitlik, təhlükəsizlik tam təmin olunub. Qlobal miqyasda tüğyan edən təhdidlər, terror dalğaları fonunda Azərbaycan özünün sabit, təhlükəsiz ölkə imicini tam təsdiqləyib.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan müasir mürəkkəb dünyada sabitlik adası kimi tanınır. Ölkəmizdə vətəndaşlar öz gələcəyi barədə heç bir narahatlıq keçirmirlər. Birmənalı olaraq bu sabitlik xalqın arzu, istək və iradəsini təcəssüm etdirir. İctimai-siyasi sabitlik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin mövcudluğunun mühüm şərtlərindən biridir. Azərbaycanda da bu məsələyə xüsusi önəm verilir.

Odur ki, respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır. Danılmaz həqiqətdir ki, respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında Daxili İşlər Nazirliyinin və onun ayrı-ayrı strukturlarının müstəsna rolu var.

Ardı 5-ci səh.

# Tərəfdaşlar artır, çeşid çoxalır, nüfuz yüksəlir

## Azərbaycanın xaricdə fəaliyyət göstərən 10 ticarət və şərab evi, ixrac missiyaları "Made in Azerbaijan" brendinin təşviqində böyük rol oynayır

Azərbaycanda aparılan iqtisadi islahatların mühüm istiqamətlərindən biri də qeyri-neft məhsullarının ixrac potensialının artırılması və ixraca yönəlik sahələrin inkişafıdır. İxrac fəaliyyətinin əsas hissəsi isə xarici bazarlara çıxış, bazar araşdırmaları, bazarlarda milli sahibkarların maraqlarının qorunması və ticarət maneələrinin aşılmasıdır.

Prezident İlham Əliyevin ixracın təşviq edilməsi sahəsində imzaladığı fərman və sərəncamlar Azərbaycanın həm iqtisadi inkişafında, həm də xarici iqtisadi əlaqələrinin genişləndirilməsində yeni mərhələnin başlanğıcını qoyub. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı imzalanmış sənədlərə uyğun olaraq xarici ölkələrdə Azərbaycan ticarət evləri və ticarət nümayəndəlikləri yaradılır.

Ardı 6-cı səh.




Avropanın enerji xəritəsini dəyişdirəcək "Cənub qaz dəhlizi"nin çəkilişinin başa çatmasına az qalıb. Bu istiqamətdə cari ilin ötən aylarında da mühüm işlər görülüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bu layihədən də bəhs olunub.



# «Cənub qaz dəhlizi»nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlirlər əldə edəcək

## Bu, Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bir daha vurğulanmışdır

"Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirəcək qlobal layihədir. Dəhliz dörd mühüm seqmenti birləşdirir. Bunlar "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP-ın (trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (trans-Adriatik Qaz Boru Kəməri) çəkilişidir. "Şahdəniz-2"dən qazın əldə olunması və CQBK-nın genişləndirilməsinin başa çatdırılması keçən il mayın 29-da Səngəçal terminalında layihənin rəsmi açılışını etməyə imkan verdi.

Həmin hadisədən təxminən yarım ay sonra, yəni iyunun 12-də TANAP da istismara daxil oldu. Bu münasibətlə Türkiyədə, Əskişəhərdə təntənəli tədbir keçirildi. Beləliklə, artıq bir ildən çoxdur üç seqmenti müvəffəqiyyətlə fəaliyyət göstərən "Cənub qaz dəhlizi" ilə "Şahdəniz" qazı nəql edilir.

"Cənub qaz dəhlizi"nin mühüm hissəsi olan TANAP "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Türkiyəyə çatdırır. Beləliklə, indi Türkiyə həm Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri ilə daşınan, həm də TANAP-ın genişləndirilmiş CQBK-dan qəbul etdiyi mavi yanacağı alır.

Bu ilin ilk 5 ayında Türkiyənin Azərbaycandan qaz idxalının həcmi 3 milyard 758 milyon kubmetr təşkil edib. Yanvarda Türkiyə ölkəmizdən 808,3 milyon kubmetr, fevralda 683,2 milyon kubmetr, martda 772,4 milyon kubmetr, apreldə 724,8 milyon kubmetr, mayda 770 milyon kubmetr təbii qaz idxal edib. Keçən il isə Türkiyə Azərbaycandan 7 milyard 527 milyon kubmetr təbii qaz almışdı.

Ardı 3-cü səh.

# Əhalinin su ilə təminatına böyük diqqət yetirilir

Prezident İlham Əliyevin əhalinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə verdiyi tapşırığa uyğun olaraq bölgələrdə genişmiqyaslı layihələrin icrası uğurla davam etdirilir. Bu baxımdan respublikamızın qərb bölgəsini su ilə təmin edən Şəmkirçay su anbarının istismara verilməsi ətraf şəhər və rayonların istər içməli, istərsə də suvarma suyu ilə təminatında böyük rol oynayır.

Əhalini ekoloji cəhətdən təmiz içməli su ilə təmin etmək üçün hazırda su anbarının yaxınlığında yaradılan sutəmizləyici qurğuda son tamamlama işləri görülür. Qurğu istifadəyə verildikdən sonra Şəmkir, Samux və Gəncə şəhərlərinin davamlı və keyfiyyətli içməli su ilə təchizatı daha da yaxşılaşacaq.

Qərb bölgəsinin içməli və suvarma suyu ilə təminatında mühüm əhəmiyyət daşıyan Şəmkirçay su anbarı istismara veriləndən sonra bölgənin su ilə təminatında mövcud olan əsas problem, demək olar, həll edilmişdir. Dəryaçanın ümumi su tutumu 165,5 milyon kubmetr, faydalı həcmi isə 156,3 milyon kubmetrdir.

Ardı 3-cü səh.



# Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci və 25-ci bəndlərini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, №11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1542-VQD, 1551-VQD nömrəli, 9 aprel tarixli 1559-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1575-VQD, 1577-VQD və 1584-VQD nömrəli qanunları) 30.6.10-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin Məcəlləyə aşağıdakı məzmunda 30.6.11-ci maddə əlavə edilsin:

"30.6.11. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Hesablama Palatasına.".

Maddə 2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, №11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1 (I kitab), maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389; Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart tarixli 1534-VQD, 1538-VQD və 1549-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD və 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 43.2-ci maddədə "54.2-ci maddəsində" sözləri "43.2-1-ci və 54.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 43.2-1-ci maddə əlavə edilsin:

"43.2-1. Bu Məcəllənin 547-ci maddəsində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən tərtib edilir.";

2.3. 547-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 547. Hesablama Palatası haqqında qanunvericiliyin pozulması**

547.1. Aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi və şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədi ilə kənar dövlət maliyyə nəzarətinin obyektlərinə və nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəflərə göndərilmiş Azərbaycan Respublikası Hesablama Palatasının qərarlarının əsassız icra edilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

547.2. Azərbaycan Respublikası Hesablama Palatasının qərarları kənar dövlət maliyyə nəzarətinin obyekti tərəfindən əsassız icra edilmədikdə həmin obyektin xəzinə və bank hesabları üzrə (müdafiə olunan xərc maddələri istisna olmaqla) əməliyyatların dayandırılması barədə Azərbaycan Respublikası Hesablama Palatasının təqdimatının xəzinə orqanları və müvəkkil banklar tərəfindən icra edilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

547.3. Kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə əlaqədar Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyətinə mane olma, yəni:

547.3.1. Azərbaycan Respublikası Hesablama Palatasının əməkdaşlarının kənar dövlət maliyyə nəzarəti obyektlərinə daxil olmasına, kənar dövlət maliyyə nəzarəti tədbirinin aparılmasına maneçilik törədilməsinə;

547.3.2. elektron informasiya sistemlərinə çıxış imkanlarının yaradılmamasına və ya buna maneçilik törədilməsinə;

547.3.3. kənar dövlət maliyyə nəzarəti obyektləri tərəfindən Azərbaycan Respublikası Hesablama Palatasının sorğularının tələb olunan qaydada cavablandırılmamasına, zəruri məlumatların və sənədlərin, habelə "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədi ilə kənar dövlət maliyyə nəzarətinin predmetinə aid olan kommersiya, vergi və bank sirrini təşkil edən sənəd və məlumatların, fərdi məlumatların vaxtında və tələb olunan səviyyədə təqdim edilməməsinə və ya gecikdirilməsinə, yalan və ya dürüst olmayan məlumatların təqdim edilməsinə;

547.3.4. dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası ilə bağlı hesabat və məlumatların, habelə maliyyə, mühasibat, vergi və statistik uçot hesabatlarının vaxtında təqdim edilməməsinə, hesabatlarda informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə görə -

vəzifəli şəxslər dörd yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər min manatdan beş min manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2019-cu il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1433-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanunu) 308-2.1-ci maddəsinə "açıq tender üsulu ilə" sözlərindən sonra "və ya açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə" sözləri və "metodlarından" sözündən sonra "(vasitəsindən)" sözü əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1 (I kitab), maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389; Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart tarixli 1534-VQD, 1538-VQD, 1549-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD, 1583-VQD nömrəli, 17 may tarixli 1595-VQD nömrəli, 13 iyun tarixli 1609-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 445-1.1.2-ci maddəyə "açıq tender üsulu ilə" sözlərindən sonra "və ya açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə" sözləri və "metodlarından" sözündən sonra "(vasitəsindən)" sözü əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 445-1.6-cı maddə əlavə edilsin:

"445-1.6. Satınalan təşkilat tərəfindən malların (işlərin və xidmətlərin) satın alınmasının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə həyata keçirilməli olduğu halda, digər sahibkarlıq subyektlərinin iştirakı ilə həyata keçirilməsinə görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini, 94-cü maddəsinin I hissəsinin 7-ci, 15-ci və 27-ci bəndlərini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35; 2019, № 1, maddə 1) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nin 44-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. dördüncü hissədə "Milli Məclis tərəfindən" sözləri "Milli Məclisin azı 63 deputatının səs çoxluğu ilə" sözləri ilə əvəz edilsin;

1.2. altıncı hissənin ikinci cümləsi çıxarılsın;

1.3. aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"Hesablama Palatası sədrinin, sədr müavininin və auditorlarının səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı məsələlər "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq tənzimlənir.".

**Maddə 2.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584; 2003, № 6, maddə 267; 2004, № 12, maddə 979; 2005, № 5, maddə 393, № 12, maddə 1083; 2006, № 2, maddə 67, № 3, maddə 225, № 12, maddə 1012; 2007, № 12, maddə 1202; 2008, № 12, maddə 1049; 2009, № 6, maddə 395, № 7, maddə 505; 2012, № 6, maddə 528; 2014, № 8, maddə 958; 2016, № 11, maddə 1777; 2017, № 1, maddələr 18, 32; 2018, № 8, maddə 1671, № 12 (I kitab), maddə 2500) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 12.1.10-cu maddəyə "layihələri" sözündən sonra "və qanun layihələrinə dair izahat" sözləri əlavə edilsin;

2.2. 20.5-ci maddədə "öz nizamnaməsinə" sözləri "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin və həmin maddəyə "barədə" sözündən sonra "illik" sözü əlavə edilsin;

2.3. 22-ci maddənin mətnindən "gəlirlərinin və xərclərinin" sözləri çıxarılsın və həmin maddənin mətnində "qanunvericiliyə" sözü "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin;

2.4. 27.7-ci maddəyə "icrasına dair" sözlərindən sonra "illik" sözü əlavə edilsin.

**Maddə 3.** "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 268; 2006, № 2, maddə 67; 2009, № 4, maddə 213; 2011, № 12, maddə 1078) 4.6-cı maddəsi ləğv edilsin.

**Maddə 4.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, №11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, №12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50; Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanunu) 41.2-ci maddəsinə aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"Bank sirrini təşkil edən məlumatlar Azərbaycan Respublikasının Hesablama Palatasına "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada verilir.".

**Maddə 5.** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605; 2008, № 12, maddə 1049; 2010, № 4, maddələr 265, 276; 2012, № 6, maddələr 512, 529; 2013, № 1, maddə 18; 2015, № 7, maddə 819; 2016, № 10, maddələr 1601, 1609, № 11, maddə 1754; 2017, № 3, maddə 333; 2018, № 6, maddə 1179; 2019, № 1, maddə 28; Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 5.2-1-ci maddə əlavə edilsin:

"5.2-1. Kənar dövlət maliyyə nəzarətinin obyektində mühasibat uçotunun aparılmaması, yaxud qanunvericiliyin tələblərinə uyğun təşkil edilməməsi səbəbindən zəruri məlumatları əldə etmək mümkün olmadıqda, Azərbaycan Respublikasının Hesablama Palatası "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, kənar dövlət maliyyə nəzarətinin obyektindən mühasibat uçotunun təmin edilməsini tələb edir.".

**Maddə 6.** "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984; 2005, № 11, maddə 1004; 2007, № 6, maddə 562, № 10, maddə 938, № 12, maddə 1196; 2009, № 6, maddə 404, № 7, maddələr 507, 517; 2010, № 10, maddə 839; 2011, № 7, maddə 612; 2014, №11, maddə 1371; 2015, № 6, maddə 684, № 11, maddə 1296; 2016, № 3, maddə 405, № 11, maddə 1771; 2017, № 5, maddə 740, № 7, maddələr 1302, 1309, № 11, maddələr 1951, 1958; Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 58.6-cı maddə əlavə edilsin:

"58.6. Mərkəzi Bankda kənar dövlət maliyyə nəzarəti Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmaqla həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Xidmət Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1622-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Xidmət Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1622-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Xidmət Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Xidmət Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanının 2-ci hissəsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 402; 2010, № 2, maddə 80; 2017, № 7, maddələr 1334, 1337) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5-ci bənddə "və 42.4-cü" sözləri ", 42.4-cü və 58.6-cı" sözləri ilə əvəz edilsin;

3.2. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 58.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2019-cu il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1626-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1626-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2019-cu il*

# Qurban kəsmək savabdır

Müsəlman dünyası əziz bayramını - mübarək Qurban bayramını qarşılayır. Bu bayramın islam aləmində xüsusi yeri var. Müsəlmanlar onu həmişə sonsuz sevinc hissi ilə qarşılayırlar. Bayram günlərində möminlər evlərini təmizləyib bəzəyir, dadlı yeməklər bişirir, ən yaxşı paltarlarını geyinirlər. Küçə və meydanlar çıraqban olur. Hamı bir-birini bayram münasibətilə təbrik edir.



Məlum olduğu kimi, qurbankəsmə mərasiminin tarixi qədim dövrlərə gedib çıxır. Tarix boyu dünya xalqları bu ayini müxtəlif cür icra etmişlər. Hətta insanları qurban kəsmək, odda yandırmaq, suya atmaq kimi dəhşətli adətlər olmuşdur. Hər üç səmavi dində - iudaizm, xristianlıq və islamda bu və ya digər formada qurbankəsmə ayini var. İslamın bərqərar etdiyi Qurban bayramı isə bəşəriyyətin həyatında tamamilə yeni səhifə açdı, Allahın yaratdığı ən kamil məxluqa - insana bir vaxtlar bəslənmiş vəhşi münasibətə son qoydu.

Qurban bayramı İbrahim peyğəmbərin həyatında baş vermiş bir əhvalatla əlaqədardır. Həmin əhvalat Qurani-şərifdə əksini tapmışdır. Müqəddəs Kitabımıza görə, İbrahim əleyhissəlam yuxusunda görür ki, Allah ondan oğlu İsmayılı qurban kəsməyi buyurur. İbrahim peyğəmbər gördüyü yuxudan çox kədərlənir, əhvalı pozulur. Bir ata kimi - özü də qoca vaxtında Yaradanın bəxş etdiyi övlad payını itirmək istəmir. İbrahim peyğəmbər həmin yuxunu təkrar-təkrar görür və axırda dərk edir ki, sevimli oğlunu qurban kəsmək Allahın əmridir, Xaliqin buyruğu yerinə yetirilməlidir. İbrahim peyğəmbər sevimli oğlunu qurban kəsmək istəyəndə isə nə qədər cəhd etsə də, Allahın hökmü ilə bıçaq kəsmir. Elə bu məqamda səmadan səs gəlir: "Ey İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin (Sənə yuxuda nə əmr olunmuşdursa, onu yerinə yetirdin. Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq" (Quran, Saffat, 104-105).

Uca Yaradan İsmayılı qurban kəsməyi əmr etməklə peyğəmbərlik üçün bəyənib seçdiyi bəndəsini - İbrahim əleyhissəlamı sınağa çəkirdi və onun bu sınaqdan mətanətlə çıxdığını görüb İsmayılın əvəzinə qurban kəsmək üçün qoç göndərir. İbrahim peyğəmbər qoçu qurban kəsib Allaha şükür edir...

Qurban bayramının əsasında duran bu hadisənin böyük mənası var. Bir tərəfdən Allah-taala İbrahim peyğəmbərin səmimiliyini, Tanrıya sədaqətini və qəlbən bağlılığını, Onun buyuruqlarına əməl etməyə hazır olduğunu sübut etdi. Digər tərəfdən isə, Allah-taala İbrahim peyğəmbər vasitəsilə öz bəndələrinə bildirdi ki, yalançı dinlərdə olduğu kimi, insanların qurban kəsilməsini istəmir. Allah qurban kəsmək üçün göydən qoç göndərməklə yalançı etiqadların puçluğunu, yaratdığı ən mükəmməl məxluqun - insanın hər şeydən uca olduğunu nəzərə çatdırdı.

Belə bir məqamı vurğulamaq lazımdır ki, qurban kəsmək Allaha xoş gələn əməllərdəndir. Müsəlman qurban kəsməklə Yaradana sədaqətini nümayiş etdirir. Elə "qurban" sözünün hərfi mənası ("yaxınlıq", yəni Allaha yaxınlıq) da buna dəlalət edir. Başqa sözlə, müsəlman qurban kəsərək Uca Yaradana yaxınlığını, ona sədaqətini bir daha sübut edir.

Qurban kəsmək Məkkədə həcc ziyarətində olan zəvvarlar üçün vacibdir. Zəvvarlar qurban kəsməklə həcc ziyarətini başa vururlar. Həcc ziyarətində olmayan yüz milyonlarla müsəlmanın isə qurban kəsməsi vacib olmasa da, Allah-taalanın yanında böyük savabdır, çünki kasıblara qurban əti paylamaq onların bayram əhvali-ruhiyyəsində yaşamasına imkan verir. Bununla belə, qurbanı yalnız imkanlı şəxslər kəsməlidir. İmkanlıların qurban kəsməməsi məqbul olmadığı kimi, imkansızların da ailəsinin güzəranına ziyan vurmaqla, yaxud borc-xərclə qurban kəsməsi məqbul deyil.

Qurban qoyun, keçi, dəvə və inəkdən kəsilməlidir. Çöl heyvanlarından, eləcə də quşlardan qurban kəsilməz. Qurbanlıq heyvan sağlam, qüsursuz və cavan olmalıdır. Xəstə, arıq, çolaq, gözü kor, buynuzu sınmış, dişləri tökülmüş, qulağı, quyruğu kəsilmiş, boğaz heyvandan qurbanlıq olmaz. Qurban əti, adətən, üç yerə bölünür: bir hissəni qurban kəsən özünə saxlayır, bir hissəsini qohum-əqrəbaya və dost-tanışa verir, bir hissəsini də ehtiyacı olanlara paylayır. Müsəlman istəsə, qurban ətinin hamısını kasıblara paylaya bilər. Həm də imkan daxilində bir yox, bir neçə qurban kəsib ehtiyacı olanlara paylamaq savabı artırar. Yeri gəlmişkən, peyğəmbərimiz Məhəmməd salavatullah Qurban bayramında çoxlu qurban kəsib kasıblara paylayarmış.

Qurbanlığın başqa bir gözəl xüsusiyyəti də var. Belə ki, burada dini ayrı-seçkiliyə yol verilmir. Yəni başqa dinə mənsub olan imkansız insan varlı müsəlmanın imkanlarından bəhrələnib adi günlərdə əli çatmayan qurbanlıq ətindən yeyə bilər və bu, onun haqqıdır. Qurbanlığın məğzi də elə ondan ibarətdir ki, insanlar Tanrıya xoş gələn belə bir əməli icra edirlər.

İmkanlı müsəlmanın qurban kəsib imkansızların ehtiyaclarını qismən də olsa ödəməsi xeyirxahlığın təzahürüdür. Allaha xoş gələn bu əməl Qurban bayramında özünü daha qabarıq şəkildə büruzə verir. Qurban ətinin paylanması insanların bir-birinə kömək göstərməsinin vacibliyinə dəlalət edir.

Dinimizin təlqin etdiyi ədalət prinsipi də Qurban bayramında özünü göstərir. Qurban ətinin paylanması maddi sərvətlərin ədalətli bölüşdürülməsi mənasına gəlir.

Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət, xeyirxahlıq duyğuları aşılayır. Müsəlmanlar bir-birinə daha yaxın, daha məhrəm, daha mehriban olurlar.

Dövlətimiz vətəndaşların qurban bayramını arzuolunan səviyyədə qeyd etməsi üçün lazımi şərait yaradır. Azərbaycan möminləri iki gün bayram sevinci yaşayırlar. Səlahiyyətli orqanlar qurbanlıq heyvanların satışı və kəsimi üçün baytarlıq-sanitariya və gigiyena normalarına cavab verən yerlər ayırmışdır. Bayram günlərində ölkədə 44 stasionar və 30 çadır tipli heyvan kəsimi məntəqəsi fəaliyyət göstərəcək.

Allah-taala kəsəcəyimiz qurbanları qəbul eləsin! Gələn Qurban bayramını Qarabağda qeyd edək, inşallah!

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***






# "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlirlər əldə edəcək

## Bu, Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bir daha vurğulanmışdır

*Əvvəli 1-ci səh.*

Mayda Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi aprellə müqayisədə 46 milyon kubmetr artıb. Azərbaycan mayda Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan (894 milyon kubmetr) sonra ikinci olub.

Keçən ilin iyun ayından indiyədək TANAP-la Türkiyəyə 2,2 milyard kubmetrdən çox "Şahdəniz" qazı nəql edilib. Kəmərlə bu il 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr, 2021-ci ildə 6 milyard kubmetr Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsi planlaşdırılır.

Xatırladaq ki, "Şahdəniz-2"dən çıxarılacaq illik 16 milyard kubmetr mavi yanacaq həcminin 6 milyard kubmetrinin Türkiyəyə, 10 milyard



kubmetrinin isə Avropaya ixracı nəzərdə tutulub.

Hazırda "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP-ın çəkilişi uğurla yekunlaşmaqdadır. Gələn il bu kəmər də işə düşəcək. Azərbaycan təbii qazını Avropaya nəql edəcək TAP-la birləşmək üçün TANAP bu il iyulun 1-dən etibarən hazır vəziyyətə gətirilib.

Sözügedən müşavirədə Prezident İlham Əliyevin dediyi kimi: "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir". Müşavirədə dövlət başçısı həmçinin bildirmişdir ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu baxımdan "Cənub qaz dəhlizi" ilə bağlı görülən işlərin əhəmiyyəti qeyd edilmiş, onun tarixi layihə olduğu vurğulanmışdır.

"Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm faktor olacaq. Eyni zamanda Azərbaycanın regionda və Avropada əhəmiyyətinin artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən tranzit ölkə kimi əhəmiyyəti artacaq. Eləcə də Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm amilə çevriləcək.

Bu dəhliz həmçinin region ölkələrinə xidmət edəcək, onların öz enerji resurslarını dünya bazarına çıxarması üçün yeni mənbə rolunu oynayacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Əhalinin su ilə təminatına böyük diqqət yetirilir



*Əvvəli 1-ci səh.*

Hazırda Almaniya İnkişaf Bankı ilə Azərbaycan hökumətinin birgə layihəsi əsasında həyata keçirilən yenidənqurma işlərində layihəyə uyğun olaraq 576 kilometr uzunluğunda paylayıcı içməli su, 582 kilometr uzunluğunda kanalizasiya xətti çəkilir.

Layihənin birinci mərhələsi üzrə işlərə 2011-ci ilin sentyabr ayında başlanılıb. Bu mərhələdə Göygöl su mənbəyində ötürücülük qabiliyyəti saniyədə 200 litr olan yeni drenaj sistemi yaradılmış, Gəncə şəhərində həcmi 4000 kubmetr olan su anbarı tikilmiş, mənbədən anbara qədər 24,3 kilometr uzunluğunda magistral kəmər çəkilmişdir. Bu mərhələ üzrə bütün işlər nəzərdə tutulduğu vaxt, yəni 2014-cü ilin fevralında başa çatdırılmışdır. Bundan sonra Qızılqaya su mənbəyində bərpa-yenidənqurma işləri aparılmış, 4 kilometr magistral su kəməri, ümumi tutumu 12000 kubmetr olan 3 anbar inşa edilmiş, anbarlararası xətt çəkilmişdir.

Gəncə şəhərinin içməli su tələbatının böyük hissəsi Şəmkirçay su anbarının yaxınlığında tikilən sutəmizləyici qurğudan təmin olunacaqdır. Buradan Gəncə şəhərinə 27,5 kilometr uzunluğunda magistral su kəməri çəkilmişdir.

Artıq əhalinin sıx yaşadığı ərazilərdə layihənin icrası başa çatdırılmışdır. Hazırda çoxmənzilli yaşayış binalarında daxili su sistemlərinin yenidən qurulması işləri sürətlə davam etdirilir. İstismar müddətini başa vurmuş dəmir borular polietilen borularla əvəz olunur.

Şəhərin su və kanalizasiya sisteminin yeniənməsi sakinlər arasında böyük razılıqla qarşılanmışdır. Təbriz küçəsinin sakini Solmaz Bağırova dedi ki, su sarıdan çox əziyyət çəkirik. Bəzən su verilən vaxt evdə olmayanda susuz qalırıq. İndi 24 saat su ilə təmin ediləcəyik. Bu, bizə rahatlıq gətirəcək. Buna görə dövlət başçısına çox-çox minnətdarıq.

Həsən Əliyev küçəsinin sakinləri də göstərilən qayğıya görə Prezident İlham Əliyevə razılıqlarını bildirdilər. Orxan İbrahimov, Şöhrət Quliyev və başqaları dedilər ki, çoxmənzilli binada yaşadığımız üçün daha çox əziyyət çəkirik. Odur ki, işlərin başa çatdırılmasını səbirsizliklə gözləyirik.

Qeyd edək ki, Gəncə şəhərinin mərkəzləşdirilmiş su təchizatı və kanalizasiya sistemlərinin yaradılması ötən əsrin 30-cu illərində həyata keçirilmişdir. Lakin şəhərin böyüməsi və əhalinin artımı su təchizatında problemlər yaratmışdı. Qızıl qaya və Göygöl su mənbələrindən, həmçinin subartezian quyularından verilən su əhalinin tələbatını ödəmirdi. Başqa sözlə, 350 min sakini olan Gəncə şəhərində əhalinin təxminən 45 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunurdu. Dövlət başçısının göstərdiyi qayğı nəticəsində aparılan yenidənqurmadan sonra şəhər əhalisi 24 saat içməli su ilə təmin olunacaq, mənzillərdə smart-kart tipli sayğaclar quraşdırılacaqdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***






# Gənclik






● 12 Avqust Beynəlxalq Gənclər Günüdür



## Yeni nəslin hərtərəfli inkişafına geniş imkanlar yaradan siyasət

### Xalqımız özünün xoşbəxt gələcəyə olan ümidlərini dövlətə və gənc nəslə bağlayır

**Heç də əbəs yerə deməyiblər ki, gələcək gəncliyindir. Çünki hər bir xalqın taleyi onun gələcək nəsillərindən daha çox asılı olur. Gənclik güc-qüvvə, enerji deməkdir. Gənclik ümiddir, inamdır! Ona görə də gəncliyin dünyagörüşlü, intellektual baxımdan yetkin, milli hissli, bəşəri duyğulu olması vacib amillərdəndir. Məhz bu baxımdan hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır.**

Azərbaycan bu sahədə bir çox ölkələri, hətta beynəlxalq ictimaiyyəti də qabaqlayıb: 1997-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə 2 Fevral Azərbaycanda Gənclər Günü kimi təsis olunub. Məhz bundan sonra Gənclərin İşləri üzrə Nazirlərin Ümumdünya Konfransının (8-12 avqust 1998-ci il) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 Avqust Beynəlxalq Gənclər Günü elan edilib.

Ölkəmizdə gənclərə yüksək qayğı diqqət mərkəzində saxlanır, bu istiqamətdə uğurlu dövlət siyasəti həyata keçirilir. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun davam etdirilməsi yeni nəslin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb. Bu, Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Gənclər Günü Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Ümummilli Lider Heydər Əliyev dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları da gəncliyin inkişafına xidmət edir. Həmin sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır: ölkədə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində həyata keçirilən layihələr, gənclər təşkilatlarının formalaşması bu sahəyə böyük diqqətin nəticəsidir.

Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması üçün əhəmiyyətli işlər görülür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatçısına çevrilib. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Sosial həyatın bütün sferalarına nəzər salsaq, orada gənclərin əksəriyyət təşkil etdiyinin şahidi olarıq. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Dövlət başçısı İlham Əliyev gənclərə inandığını və onlara arxalandığını belə ifadə edir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Dövlət başçısının 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" onların xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında elmi nailiyyətlər qazanır.

Azərbaycan gənclərinin sağlam böyüməsində əhəmiyyətli olan idmanın inkişaf etdirilməsinə və onun kütləviliyinin artırılmasına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün ölkəmizdə 43 olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, Azərbaycanın nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi, idmançılarımızın olimpiya və dünya çempionatlarında uğurlu çıxışları da bunun təsdiqidir. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi isə onların yeni uğurlarında mühüm rol oynayır.

Təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının nəticəsi kimi dəyərləndirilir. Milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, ötən il şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları, bu il ölkəmizin paytaxtında keçirilən "Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalında əldə etdiyi uğurların arxasında, təbii ki, dövlət gənclər siyasəti dayanır.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan Prezidentinin 2011-ci il 7 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması da əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, davamlılığının daha bir əyani sübutudur.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bunu nəzərə alan dövlət başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Prezident İlham Əliyevin gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair sərəncamının da xüsusi əhəmiyyəti var.

Bəli, gənclər də dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu diqqət və qayğıya cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edirlər. Onlar vətənin inkişafı üçün səylə çalışır, Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Bütün bunlarla yanaşı, hələ qarşıda görüləsi işlər var. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək böyük işlərin həyata keçirilməsinin əsas ağırlığı bugünkü gənclərin üzərinə düşür. Gənclik isə özünün potensialına güvənərək ən məsuliyyətli sahələrdə bilik və bacarıqlarını əsirgəməyərək vətənin əsl övladları olduqlarını təsdiqləyəcəklər. Münasibətlər qarşılıqlı olanda səmərəsi də müvəffəqiyyət gətirər.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● İstedadlılar

## Həyat eşqi sönməyənlər

**Bu dünyanın gözəllikləri yalnız gəzdiyin, gördüyün yerlərdə yaddaşına köçənlərdən, təsəvvüründə qalanlardan ibarət deyil. İnsanın qəlbi ilə hiss etdiyi əsrarəngiz bir aləm də var.**




Ancaq onu hər kəs "görə" bilmir. O aləmə könlünün gözləri ilə baxmaq, duymaq mümkündür. Bir çoxunun xəbərsiz olduğu bu hissləri, qəlbi ilə gördüklərini təsvir etmək üçün isə xüsusi istedad, bacarıq lazımdır.

Onlar öz duyğularını, daxili aləmlərini, arzularını, ümidlərini özlərinə məxsus şəkildə ifadə etmək qabiliyyətinə malik olan gənclərdir. Sağlamlığı məhdud olan həmin gənclərdən biri - Elvin Ələkbərzadə 1994-cü ildə Lənkəranda dünyaya göz açıb. O, bədii oyma sənətinə maraq göstərir. 2017-ci ildə Peşə Reabilitasiya Mərkəzində ağac üzərində oyma peşəsinə yiyələnib. Elvinin görmə qabiliyyəti zəif olsa da, əl işlərinə baxdıqca insan heyrətə gəlir. Onun incə naxışlarla yaratdığı Azərbaycan Xalq Cümhuriyyətinin 100 iliyinə həsr olunmuş ağac üzərində oyma işində vətənimizə aid bütün atributlardan istifadə edilib.

O, çox optimist və həyatsevər gəncdir. Elvin, bütün çətinliklərə baxmayaraq, həyatda öz yerini tapıb və sübut edib ki, insan istədiyi hər şeyə nail ola bilər.

Elvin 2017-ci ildə Ankarada Avropa könüllüsü kimi gənclərin beynəlxalq mübadilə proqramlarında yaxından iştirak edərək digər ölkələrdən gəlmiş əlilliyi olan gənclərə ağac üzərində oyma peşəsini öyrədib. Hazırda isə o, Antaliyada Avropa könüllüsü olaraq öz peşəsini öyrətmək üçün bir illik dəvət alıb.

Başqa bir istedadlı gənc - Aytəkin Şahməmmədova isə 1993-cü ildə Zəngilan rayonunda anadan olub. Elə həmin il erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş doğma torpağının - Zəngilanın nisgili və ağrı-acısı hələ də Aytəkinin qəlbindədir.

Hərəkət məhdudiyyəti olsa da, o, rəssamlıq peşəsinə yiyələnməyi qarşısına məqsəd qoyub. Bu istəklə 2016-cı ildə Peşə Reabilitasiya Mərkəzinə gəlib, rəssamlıqla yanaşı, toxuculuq (muncuqlarla) peşəsinin sirlərini öyrənib. Aytəkinin xüsusi zövqlə rəngli muncuqlardan yaratdığı gül kompozisiyalarında zəriflik və nəciblik hiss olunur. O, 2015-ci ildə IX Ümumrespublika yaradıcılıq-sərgi müsabiqəsində və bir sıra sərgilərdə iştirak edib.

Bu istedadlı gənclərin arzuları tükənməzdir. Ona görə də seçdikləri peşənin sirlərinə dərindən bələd olmaq, yeni əsərlər yaratmaq üçün böyük həvəslə çalışırlar.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Uğura imza atanlar

## Sumqayıtda paralimpiyaçılarla görüş



**Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində İtaliyanın Genov şəhərində keçirilmiş paracüdo üzrə Avropa çempionatında yüksək nailiyyətlər qazanmış İlham Zəkiyev, Namiq Abbaslı, Kənan Abdullaxanlı, Səbinə Abdullayeva və pauerliftinq üzrə Tokio-2020 Yay Paralimpiya Oyunlarına vəsiqə qazanmış Elşən Hüseynovla görüş keçirilmişdir.**

Görüşdə şəhərin idman təşkilatlarının rəhbərləri, bədən tərbiyəsi və idman veteranları, əməkdar məşqçilər, dünya və Avropa yarışlarının mükafatçıları, idman növləri üzrə baş məşqçilər iştirak etmişlər. Tədbirdə vurğulandı ki, dövlət digər sahələrə olduğu kimi, bədən tərbiyəsi və idmana da diqqət və qayğı göstərir. Bu gün idmançılarımız mötəbər yarışlarda iştirak edib ölkə idmanının şanlı tarixini yaradırlar. Beynəlxalq miqyaslı turnirlərdə nailiyyətlərin qazanılmasında Sumqayıt idmançılarının özünəməxsus payı var. İdmançılar şəhərdəki komplekslərdə məşğul olur, onlara yaradılan şərait nəticəsindən yeni-yeni uğurlara imza atırlar. Bildirildi ki, ölkə rəhbərinin həyata keçirdiyi sosialyönümlü, iqtisadi əhəmiyyətli tədbirlər nəticəsində qısa müddətdə Sumqayıtın da sosial-iqtisadi və mədəni həyatında davamlı inkişafa nail olunmuşdur. Ümummilli Liderin adına layiq, əzəməti ilə insanı valeh edən Heydər Əliyev Mərkəzi, Şahmat və Uşaq İncəsənət məktəbləri, Yeni Azərbaycan Partiyasının inzibati binası, Sumqayıt bulvarı son illər yaradılmış memarlıq inciləridir.

Əməkdar bədən tərbiyəsi və idman xadimi, paracüdo üzrə milli komandanın baş məşqçisi İbrahim İbrahimov, Əməkdar məşqçi Yengibar Əliyev və ikiqat paralimpiya çempionu İlham Zəkiyev Milli Olimpiya və Paralimpiya komitələrinin, Gənclər və İdman Nazirliyinin və federasiyaların bədən tərbiyəsi və idman sahəsində gördüyü məqsədyönlü işlərin Sumqayıtda uğurla davam etdiyini vurğuladılar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

● Gənclik və idman

## Parlaq gələcək

**İyulun 21-27-də Bakıda XV Avropa Gənclər Olimpiya Festivalına yekun vuruldu. Bir həftə davam edən yarışlarda 48 ölkəni təmsil edən 14-18 yaş arasında 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı.**

Azərbaycan komandası Avropanın Rusiya, Böyük Britaniya və Türkiyə istisna olmaqla, bütün ölkələrini, o cümlədən Fransa, Almaniya, İtaliya, Ukrayna, İspaniya, Çexiya, Hollandiya, Belarus, İsveçrə, Avstriya və digərlərini qabaqlayaraq festivalda 23 medal qazanmış və ümumi komanda hesabında 4-cü olmuşdur. Medallardan 10-u qızıl, 7-si gümüş, 6-sı bürüncdür.

Azərbaycan komandasının üzvləri 10 idman növü üzrə keçirilmiş yarışların 3-də medallar əldə ediblər. Sözsüz ki, bütün turnirlərdə medal gözlənilən idman növləri sırasında güləş xüsusi yer tuturdu. Pəhləvanlarımız bu dəfə də ənənələrinə sadiq qalaraq 3 gün keçirilən yarışlarda ümumilikdə 16 medal (8 qızıl, 5 gümüş, 3 bürünc) əldə edərək tarixi qələbəyə imza atdılar. Bununla da 13 ölkə arasında ilk pillədə yer aldılar.

Pəhləvanlarımızla yanaşı, medal estafetini cüdoçularımız da davam etdirməklə 3 yarış günündə 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar. Heydər Əliyev adına İdman Sarayında keçirilən, 40 ölkədən 297 cüdoçunun qatıldığı yarışda Azərbaycan 4 qız və 8 oğlan idmançı ilə təmsil olunub.

Gimnastika yarışlarında isə Azərbaycan atleti Səməd Məmmədli XV Avropa Gənclər Yay Olimpiya Festivalının idman gimnastikası yarışlarında gümüş medal qazanıb. Gimnastımız dəstəli at yarışlarında uğurla çıxış edərək 13,600 xal toplayaraq bu nəticəyə nail olub.

*Ağaəli MƏMMƏDOV,*
*"Azərbaycan"*







● "BAKI-2019"

## İkinci nailiyyət: gümüş mükafat

**Gənc idmançı, XV Avropa Gənclər Yay Festivalının sərbəst güləş üzrə gümüş medalçısı Elnurə Məmmədova ilə Tovuz Rayon İcra Hakimiyyətində görüş geçirilmişdir.**



Görüşdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək ölkəmizdə idmana və idmançılara göstərilən dövlət qayğısından danışmış və qeyd etmişdir ki, bu qayğının nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi də tanınır. Respublikamızda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmanın həyat tərzinə çevrilməsi üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərdiyi xidmətlər nəticəsində indi idmançılarımız ölkəmizi ən mötəbər beynəlxalq yarışlarda uğurla təmsil edirlər. Ötən ay Bakıda keçirilən XV Avropa Gənclər Yay Festivalında 48 ölkə arasında Azərbaycan millisi dördüncü yeri tutmuşdur. Medal qazanan idmançılar arasında tovuzlu Elnurə Məmmədova da var. Sərbəst güləş üzrə 53 kiloqram çəki dərəcəsində II yerə çıxan Elnurə festivalın gümüş medalına layiq görülmüşdür.

Qeyd edilmişdir ki, bu, cari ildə Elnarənin ikinci nailiyyətidir. Belə ki, o, iyun ayında İtaliyada keçirilən yeniyetmə güləşçilərin Avropa çempionatında bürünc medal qazanmışdır. Görüş iştirakçıları Elnurə Məmmədovanın məşqçisini və valideynlərini təbrik edərək gənc idmançıya yeni-yeni qələbələr arzulamışlar.

Sonra Elnurə Məmmədovaya Tovuz Rayon İcra Hakimiyyətinin fəxri fərmanı və qiymətli hədiyyələri təqdim olunmuşdur. Gənc idmançı ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirmiş və onun idmançı kimi yetişməsində əməyi olanlara təşəkkür etmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

*Tarixən islama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlərboyu bu dəyərləri yaşatmış və ölkəmiz islam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhvali-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.*

**İlham ƏLİYEV**



GILAN HOLDING

Azərbaycan xalqını

Müqəddəs Qurban bayramı

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və süfrələrinizə ruzi-bərəkət arzulayır

ALLAH QURBANLARINIZI QƏBUL ETSİN!

# Sosial güvənliyin gücləndirilməsi həm də istehlak bazarında ədalətli qiymət siyasətinin təminatından keçir

*Əvvəli 1-ci səh.*

Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik".

Əhalinin rifah halının yaxşılaşmasında məşğulluq mühüm rol oynayır. İşləyən, yaxşı maaş alan hər bir vətəndaş öz sosial rifahını təmin etmək qabiliyyətindədir. Odur ki, ölkəmizdə vətəndaşların məşğulluğunun təmin edilməsinə xüsusi diqqət göstərilir. Bu istiqamətdə həyata keçirilən siyasət çərçivəsində dövlət tərəfindən 6 min ailəyə mikro və kiçik bizneslə məşğul olmaq üçün dəstək verilib. Cari ildə daha 10 min ailənin Özünüməşğulluq Proqramı ilə əhatə edilməsi nəzərdə tutulub. Bunun faydasını görən vətəndaşlarımız dövlətdən müavinət almaqdansa öz kiçik bizneslərini qurub qazanmağa üstünlük verməyə başlayıblar. Həmin proqramlardan faydalanmaq üçün cari ilin 6 ayı ərzində vətəndaşlar tərəfindən 45 minə yaxın müraciətin daxil olması da bunun nəticəsidir.

Dövlət başçısı müşavirədə əhalinin sosial müdafiəsinə dolayısı ilə aid olan digər mühüm bir məsələyə - istehlak bazarındakı qiymət məsələsinə də toxundu: "Baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur. Müvafiq qurumlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar... Yəni istehlak bazarına daim nəzarət olmalıdır. Çünki burada kartel sövdələşmələri də istisna deyil. Əlbəttə ki, biz süni qiymət artımına yol verə bilmərik. Çox ciddi nəzarət mexanizmi olmalıdır. Bu sahə daim diqqət mərkəzində olmalıdır".

Öncədən qeyd edək ki, daxili istehlak bazarında ara-sıra müşahidə olunan süni qiymət artımına Prezidentin operativ münasibət bildirməsi və belə halların qarşısının alınması üçün müvafiq qurumlara konkret tapşırıqlar verməsi ilk dəfə deyil. Bu faktın özü bir daha sübut edir ki, dövlət başçısı əhalinin sosial müdafiəsini gücləndirmək üçün təkcə əməkhaqlarını, təqaüdləri, müxtəlif təyinatlı ödənişləri artırmaqla kifayətlənmir, eyni zamanda həmin artımların bəzi bazar girəvəçilərinin əllərinə düşməməsi üçün tədbirlər görür.

Artıq neçə vaxt idi ən müxtəlif səviyyələrdə, KİV-də istehlak bazarında müşahidə edilən süni bahalaşma barədə söz-söhbət gəzirdi. Kimi bunu ilin əvvəlindən reallaşmağa başlayan sosial paketlər, kimi mövsüm və iqlim, kimi də idxal məhsul və mallarındakı qiymət artımı ilə əlaqələndirirdi. Amma bütün hallarda hamının qənaəti bir məqamda üst-üstə düşürdü - hətta bahalaşma qaçılmaz olsa da, süni şəkildə qiymətlər belə qaldırılmalı deyildi. Elə Prezident də məhz bu amili nəzərə alıb müşavirədə sözügedən məsələyə kəskin mövqeyini bildirmişdir.

Həmin müşavirədən 10 gündən çox vaxt ötmüşdür və... bazardakı qiymətlər ucuzlaşmağa başlamışdır. Bu, xüsusən tərəvəz, bostan və bəzi süd məhsullarında hiss edilir. Düzdür, cüzi də olsa bahalaşan ərzaq məhsulları da var. Amma çeşidlərinə nəzər saldıqda onların əsasən idxal məhsulları olduğunu görürük. Xaricdən alınan mal və məhsulların qiymətlərini isə əksər vaxt yerli bazarda tələb və təkliflə tənzimləmək olmur. Sözümün canı odur ki, Prezidentin tapşırığından sonra süni bahalaşmaya qarşı aparılan mübarizənin, həyata keçirilən tədbirlərin nəticə və səmərə verdiyi artıq göz qabağındadır. Bir də ki, sosial güvənliyin gücləndirilməsinin həm də istehlak bazarında ədalətli qiymət siyasətinin təminatından keçdiyini hamı dərk etməlidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




# Xalqına və dövlətinə sadiq asayiş keşikçiləri

## Antimilli ünsürlərin Azərbaycanın daxili sabitliyinin təmin olunmasında müstəsna rolu olan polisə qarşı qarayaxma kampaniyası iflasa məhkumdur

*Əvvəli 1-ci səh.*

Cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı amansız mövqe tutan daxili işlər orqanları qanunla üzərinə düşən vəzifələri yerinə yetirməklə, iqtisadi inkişafın mühüm şərti olan sabitliyin təminatı üçün bütün zəruri tədbirləri həyata keçirməklə xalqın və dövlətin sadiq keşikçisinə çevrilib, ictimai etimad qazanıblar.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçərək dövlətin mühüm təsisatı kimi formalaşmış və təşkilati cəhətdən möhkəmlənmiş daxili işlər orqanları bu gün Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyətini daha da təkmilləşdirib, nailiyyətlərini artırıb.

Bir sözlə, Azərbaycan polisi bu gün ölkədə daxili sabitliyin və asayişin qorunması işini uğurla davam etdirir və hər bir ölkə vətəndaşı öz polisinə güvənir. Xarici turistlərin Azərbaycana gəlişi, səhərə qədər mərkəzi küçələrdən sengiməyən qələbəliklər, təhlükəsizlik, könül oxşayan mənzərələr Azərbaycan polisinin fədakar fəaliyyətinin yaratdığı nümunədir.

Lakin bütün bunların fonunda bəzi antimilli qüvvələr və onların ölkəmizdəki buyruq qulları son zamanlar sosial şəbəkələrdə Azərbaycan polisi haqqında həqiqəti əks etdirməyən, qərəzli, subyektiv mülahizələrə əsaslanan məlumatlar yaymaqla məşğuldurlar.

Özünü guya müxalifət adlandıran, amma fəaliyyətlərinin əsl mahiyyətində dövlətə qarşı xain mövqe tutan, müxtəlif xarici siyasi qurumların alətinə çevrilən qüvvələrin iç üzünü zaman-zaman görmüşük və bu adamlar hər zamankı kimi xaricdəki ağalarının sifarişlərini icra etməkdədirlər. Ölkəmizin yüksək imicinə zərər vurmağı bu adamlar şəxsi istəkləri ilə deyil, alət olduqları bəzi xarici qüvvələrin istəyi ilə reallaşdırırlar. Onlar indi də hər zaman xalqın keşiyində duran, daxili sabitliyin təmin olunmasında müstəsna rolu olan Azərbaycan polisinə qarşı qarayaxma kampaniyası aparırlar. Azərbaycanda idarəolunmaz bir prosesin olmasını istəyən bəzi dairələr hər fürsətdə istəyirlər ki, ölkə polisini gözdən salsınlar. Ona görə də sosial şəbəkələrdə, bəzi internet resurslarında uydurma şərhlər, videolar paylaşaraq insanlarda çaşqınlıq yaratmaq istəyirlər. Polisin imicinə kölgə salmaq üçün müxtəlif vasitələrə əl atırlar. Adi bir məsələni şişirdib polisi qaralamağa çalışırlar.

Ancaq Azərbaycan xalqı çox gözəl bilir ki, respublikada hüquq qaydasının təmini işində qazanılan uğurların arxasında müxtəlif çətin şəraitlərdə xidmət aparan, vətəndaşların qanuni mənafelərini cinayətkar qəsdlərdən qoruyan, zəruri anda xidməti borcunu hər şeydən, hətta həyatından belə üstün tutan asayiş keşikçilərinin gərgin səyi və əzmkarlığı dayanır.

Azərbaycan polisi ictimai asayişin qorunmasında, müstəqil dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında müstəsna xidmətlər göstərir. Torpaqlarımızın müdafiəsi, cinayətkarlığın səviyyəsinin azalması, silahlı quldur dəstələrinin zərərsizləşdirilməsi, mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili və digər kriminal hadisələrin qarşısının alınmasında şərəflə çalışmış daxili işlər orqanlarının şəxsi heyəti üzərlərinə düşən vəzifələri layiqincə həyata keçirirlər.

Ölkədə sabitliyin əldə edilib möhkəmlənməsində, dövlətçiliyin qorunmasında, cinayətkarlıqla mübarizədə xidmətlər göstərmiş daxili işlər orqanları həm də milli maraqların ifadəçisidir. Qarabağ savaşında sıralarından yüzlərlə şəhid verib, asayişin mühafizəsində və konstitusion dövlət quruluşunun qorunmasında fədakarlıqlar göstərən polis hər zaman qətiyyətli mövqeyi, vətəninə, xalqına, Prezidentinə sədaqətliliyi ilə seçilib.

Prezident İlham Əliyev daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirib. Əminik ki, Azərbaycan polisi müstəqil ölkəmizin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən bundan sonra da layiqincə gələcək. Eyni zamanda polis-vətəndaş həmrəyliyinin hər gün daha da yaxşılaşmasının bir nümunəsi həm də polisin işinə kölgə salmaq istəyən qüvvələrə tutarlı cavabdır. Sosial şəbəkələrdə polisin fəaliyyəti ilə bağlı qərəzli, məqsədli və sifarişli şərhlər isə antimilli qüvvələrin çirkin kampaniyasının tərkib hissəsidir. Lakin onların Azərbaycan polisinə qarşı apardığı bu qarayaxma iflasa məhkumdur.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli-mənəvi dəyərlər xalqın ən qiymətli sərvətidir

*Əvvəli 1-ci səh.*

Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də həyat tərzidir, eyni zamanda biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik o cümlədən bu dəyərlərə əsaslanır".

2017-ci ili isə dövlət başçısı "İslam həmrəyliyi ili" elan etdi. Bunun səbəbi də bəllidir. Çünki Azərbaycanda islam həmrəyliyi tam bərqərar olub. Azərbaycan müsəlmanları vəhdət namazı qılırlar və buna görə də ölkəmz bu sahədə islam aləmində çox önəmli rol oynayır.

Bu gün Azərbaycan yeganə dövlətdir ki, həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. İslami dəyərlərə hər zaman ehtiram göstərən, müsəlman ölkələrinin əksəriyyəti ilə strateji tərəfdaşlıq əlaqələri quran Azərbaycan eyni zamanda Avropa məkanına inteqrasiya edir və imkanlarından istifadə edib sivilizasiyalararası dialoqa öz töhfəsini verir. Ölkəmizdə dinlərarası dialoqlar, mühüm forumlar təşkil edilir. Bütün bunların isə bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın.

Bütün bunlar əlbəttə ki, Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərə göstərdiyi həssas münasibətin bariz nümunəsidir. Fəxrlə deyə bilərik ki, Prezident İlham Əliyevin müdrik siyasəti, xalqın milli-mənəvi dəyərlərinə, dini irsə ehtiramı sayəsində Azərbaycanda həm müsəlman, həm də digər dini icmaların fəaliyyəti ən yüksək səviyyədə dəstəklənir və bundan sonra da dəstəklənəcək.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Coca-Cola
şirkəti Azərbaycan xalqını
Qurban bayramı
münasibətilə təbrik edir,
bolluq və firavan həyat arzulayır
Bayramınız mübarək!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Azərbaycan xalqını
QURBAN BAYRAMI
münasibətilə təbrik edir,
bol ruzi-bərəkət,
xoşbəxt gələcək arzulayır



Həyatınız daim işıqlı olsun!

# Bakıda keçirilən XXXI Beynəlxalq İnformatika Olimpiadasına yekun vurulub











Avqustun 10-da Heydər Əliyev Mərkəzində XXXI Beynəlxalq İnformatika Olimpiadasının (IOI 2019) bağlanış mərasimi keçirilib.

Mərasim bu ilin fevral ayında məktəblilərin XXXI Beynəlxalq İnformatika Olimpiadasının (IOI 2019) yerli və beynəlxalq təşkilat komitələrinin nümayəndələrinin Bakıya gəlişinə həsr olunmuş videoçarxın nümayişi ilə başlanıb.

AZƏRTAC xəbər verir ki, Təhsil naziri, "IOI 2019"un sədri Ceyhun Bayramov olimpiadanın başa çatması münasibətilə iştirakçıları təbrik edib, yarışın yüksək səviyyədə təşkilinə görə təşkilatçılara, qlobal sponsor "Acer" şirkətinə və əməyi olan digər şəxslərə təşəkkürünü bildirib.

İKT bilik və bacarıqlarına yiyələnmənin vacibliyini diqqətə çatdıran Təhsil naziri ölkəmizin təhsil sahəsində innovasiyaların, informasiya-kommunikasiya texnologiyalarının geniş şəkildə tətbiqindən söz açıb. Qeyd edib ki, hər bir gənc dünyanı dəyişmək və daha yaxşı etmək imkanına malikdir. Bu işdə innovasiyalar da mühüm rol oynayır. Azərbaycanın multikultural ölkə olduğunu deyən Təhsil naziri olimpiada iştirakçılarının bir həftə ərzində ölkəmizin mədəniyyəti, musiqisi və mətbəxi ilə tanış olduqlarına əminliyini bildirib. Təhsil Nazirliyinin informasiya texnologiyalarının tədrisinə önəm verdiyini deyən Ceyhun Bayramov "IOI 2019" olimpiadasının Azərbaycanda İKT sahəsinin inkişafına töhfə verəcəyini qeyd edib. Nazir çıxışının sonunda olimpiada qaliblərini təbrik edib və bütün iştirakçılara uğurlar arzulayıb.

Tədbirdə olimpiadanın bürünc, gümüş və qızıl medala layiq görülmüş iştirakçıları mükafatlandırılıb. Olimpiada iştirakçılarının 28-i qızıl, 54-ü gümüş, 81-i bürünc medala layiq görülüb. Ən yüksək nəticə göstərmiş iştirakçı, ABŞ komandasının üzvü Benjamin Qiyə qızıl medalla yanaşı, Təhsil naziri Ceyhun Bayramov tərəfindən xüsusi mükafat da təqdim edilib.

"IOI" prezidenti Qreq Li beynəlxalq olimpiadanın bağlanış bəyannaməsini diqqətə çatdırıb.

Mərasimdə yarışın 2020-ci il iyulun 19-26-da Sinqapurda keçiriləcəyi elan edilib. Təhsil nazirinin müavini Firudin Qurbanov və "IOI 2019"un fəxri həmsədri, ADA Universitetinin rektoru Hafiz Paşayev tərəfindən Beynəlxalq İnformatika Olimpiadasının bayrağı Sinqapur Milli Universitetinin professoru Tan Sun Tekə təqdim olunub.

Daha sonra ölkəmiz haqqında film nümayiş edilib. Tədbir bədii hissə ilə davam etdirilib.

Xatırladaq ki, ölkəmizdə ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycan komandası da daxil olmaqla 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyətləri iştirak ediblər.

Olimpiada Təhsil Nazirliyinin təşəbbüsü, ADA Universiteti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və digər dövlət qurumlarının dəstəyi ilə keçirilib. Olimpiadanın rəsmi qlobal sponsoru "Acer" şirkətidir. Bundan başqa, "Azercell Telekom" tədbirə "İstedadların rəqəmsal sponsoru", "PAŞA Bank" isə "İstedad sponsoru" kimi dəstək verib.

Bilik yarışmasının media tərəfdaşı İctimai Televiziyadır.

# Tərəfdaşlar artır, çeşid çoxalır, nüfuz yüksəlir

*Əvvəli 1-ci səh.*

Ticarət evlərinin yaradılmasında əsas məqsəd ölkəmizin qeyri-neft sektoru üzrə ixrac potensialının artırılmasına, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə daha da şöhrət qazanmasına nail olmaqdır.

Artıq Azərbaycanın bir neçə ölkədə ticarət və şərab evləri, ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Belə ki, 2017-ci ildə ilk dəfə Belarusda, 2018-ci ildə Ukrayna, Latviya, Polşa və Çində, bu ilin yanvar ayında isə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan ticarət evləri açılıb. Bu ticarət evlərinin hər birində ölkəmizin müxtəlif növ məhsullarının daimi sərgisi fəaliyyət göstərir. Bu şəbəkənin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir. Bu ilin sonunadək Qazaxıstanın Nur-Sultan şəhərində ticarət evinin, Rusiyada və Çində şərab evlərinin açılması nəzərdə tutulur.

Dövlət başçısının 2017-ci il 26 yanvar tarixli "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" Fərmanına uyğun olaraq, xarici ölkələrdə yaradılan ticarət nümayəndəlikləri də bu prosesə öz töhfələrini verirlər. Belə ki, xarici ölkələrdə ticarət nümayəndəsinin təyin olunması iqtisadi əməkdaşlığın inkişafında, qeyri-neft məhsullarının ixracının genişləndirilməsində, "Made in Azerbaijan" brendinin, əlverişli biznes və investisiya mühitinin təşviqində və investisiyaların cəlb olunmasında mühüm rol oynayır.

Hazırda Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə Azərbaycanın ticarət nümayəndələri fəaliyyət göstərir. Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəliyi Polşada yerləşir və 10 ölkəni əhatə edir.

Bunlarla yanaşı, Rusiyanın Moskva şəhərində 15 Azərbaycan şirkəti tərəfindən istehsal olunan 200-dən çox çeşiddə məhsulun təqdim olunduğu "Azərbaycan nemətləri" mağazası fəaliyyətə başlayıb, Sankt-Peterburq, Yekaterinburq və digər şəhərlərdə də bu cür mağazaların açılması istiqamətində işlər aparılır.

Qeyri-neft məhsulları ixracının stimullaşdırılması məqsədilə "Made in Azerbaijan" brendinin təbliği ilə bağlı digər dəstək tədbirlərindən biri də dövlət vəsaiti hesabına sahibkarların ixrac missiyalarında, beynəlxalq sərgilərdə iştirakıdır. Bu il ərzində ixracatçıların Almaniyada keçirilən "Beynəlxalq Yaşıl Həftə", "Fruit Logistika" və "Prowein", Rusiyada "Prodexpo" və "Mosbuild", Birləşmiş Ərəb Əmirliklərində "Qulfood", Çində "Sial China" dünya miqyaslı beynəlxalq sərgilərində sahibkarlarımız vahid ölkə stendi ilə iştirak ediblər.

İlin sonuna kimi növbəti 4 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak nəzərdə tutulur. Bununla yanaşı, altı ay ərzində ixracatçıların 17 beynəlxalq sərgidə fərdi qaydada iştirakına dəstək göstərilib.

Onu da vurğulayaq ki, İqtisadiyyat Nazirliyi tərəfindən bir sıra məhsulların ixracatçılarına ixrac təşviqi ödənilir. İqtisadiyyat naziri Şahin Mustafayev mətbuata açıqlamasında bildirib ki, bu ilin son 6 ayı ərzində ixracatçılara 5 milyon manatdan artıq, ümumilikdə isə 2016-cı ilin mart ayından bugünədək 14 milyon manatdan çox ixrac təşviqi ödənilib. Bu mexanizm çərçivəsində Almaniya, Rusiya, Çin, Polşa, İtaliya, Qazaxıstan, Litva, Cənubi Koreya, Yunanıstan, Kanada, Avstraliya, Malayziya, ABŞ, Yaponiya, Səudiyyə Ərəbistanı və digər ölkələrə 210 milyon ABŞ dollarından çox qeyri-neft məhsulunun ixracı stimullaşdırılıb.

İxracın stimullaşdırılması tədbirləri çərçivəsində prosedurlar sadələşdirilir, yerli məhsullarımızın ixrac potensialı yüksək olan ölkələrdə ticarət nümayəndələri fəaliyyət göstərir, ticarət evləri və şərab evlərinin yaradılması ilə bağlı işlər davam etdirilir. Azərbaycanın xarici ölkələrdə 10 ticarət və şərab evi açılıb.

Əlbəttə ki, istehsalın təşviqi istiqamətində görülmüş işlər ixracın artımı ilə nəticələnir. Qeyri-neft ixracının son illərdəki göstəricilərinə nəzər yetirsək, bunu aydın görə bilərik. Belə ki, son 3 il ərzində qeyri-neft ixracı ümumilikdə 36,5 faiz artaraq 1,7 milyard dollar təşkil edib, 167 yeni növ məhsulun ixracına başlanıb, ixrac olunan qeyri-neft məhsullarının çeşidi 3 mini ötüb. Qeyri-neft ixracında 452 milyon dollarlıq artımın 60 milyon dollarlıq hissəsi yeni məhsulların ixracı hesabına formalaşıb. Qeyd edilməlidir ki, ixracın şaxələndirilməsi ilə yanaşı, sahibkarlara yaradılmış imkanlar xarici ticarətlə məşğul olan biznes subyektlərinin sayında əhəmiyyətli artıma gətirib çıxarıb və 79 faizlik artım müşahidə olunub. Bu, artan iqtisadi fəallığın və şəffaflığın əyani göstəricisidir.

Eyni tendensiya 2019-cu ilin altı ayında da davam edib, qeyri-neft ixracı 15 faiz səviyyəsində artaraq 980 milyon dollar təşkil edib, ticarət tərəfdaşlarının, mal çeşidlərinin və ticarət iştirakçısı biznes subyektlərinin sayında artım qeydə alınıb.

Beləliklə, görülən bütün işlər sayəsində "Made in Azerbaijan" brendinə dünya bazarında tələbat artır və ixracın coğrafiyası genişləndirilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

AZPETROL

Qurban bayramınız mübarək!

“Azpetrol” şirkəti Qurban bayramı münasibətilə Azərbaycan xalqına sülh, xoşbəxtlik, əmin-amanlıq, ruzi-bərəkət, firavan həyat və xoş gələcək arzu edir.





GCM GLOBAL ENERGY AZERBAIJAN

“Global Energy Azerbaijan”
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

“Absheron Operating Company”
“Binagadi Oil Company”
“Karasu Operating Company”
“Shirvan Operating Company”
“Neftechala Operating Company”

Müqəddəs Qurban bayramı
münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və firavan həyat diləyir

# “Hərbi-tibbi estafet” müsabiqəsinin növbəti mərhələsi keçirilib

Azərbaycan Ordusunun hərbi tibb işçilərinin də iştirak etdikləri “Beynəlxalq Ordu Oyunları - 2019” yarışları çərçivəsində Özbəkistanda keçirilən “Hərbi-tibbi estafet” müsabiqəsinin növbəti mərhələsi baş tutub.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan hərbi həkimləri “Estafetin ən yaxşı sürücü mexaniki” adı uğrunda mübarizədə digər ölkələrdən olan həmkarları ilə birlikdə bacarıqlarını nümayiş etdiriblər.

# Olimpiya idman komplekslərində idmançılar pulsuz məşqçilik xidməti, geyim və ləvazimatlarla təmin olunacaq





Azərbaycandakı olimpiya idman komplekslərinə cəlb olunan uşaq və yeniyetmələr dörd idman federasiyası tərəfindən pulsuz məşqçilik xidməti, geyim və ləvazimatlarla təmin olunacaq.

Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülən bu təşəbbüsə ilk olaraq Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Boks, Taekvondo və Cüdo Federasiyaları qoşulub. Gələcəkdə digər idman federasiyalarının da bu aksiyaya qoşulacağı gözlənilir.

AZƏRTAC xəbər verir ki, bu barədə avqustun 10-da YAP-nın təşəbbüsü və təşkilatçılığı ilə Xaçmaz Olimpiya İdman Kompleksində keçirilən kütləvi idman bayramında bildirilib.

Tədbirin əvvəlində rayon idmançılarının nümunəvi çıxışları təqdim olunub.

İdman bayramında Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, Milli Məclisin komitə sədrləri Eldar İbrahimov, Ziyad Səmədzadə, deputatlar İlham Əliyev, Xanhüseyn Kazımlı, Rauf Əliyev, Azər Badamov, Yevda Abramov çıxış edərək tədbirin əhəmiyyətindən, həmçinin ölkəmizdə idman sahəsində həyata keçirilən uğurlu dövlət siyasətindən danışıblar.

Bildirilib ki, bu gün Azərbaycan dünyada nüfuzlu idman ölkəsi kimi tanınır. İdmançılarımızın istər ölkə daxilində, istərsə də respublikamızdan kənarda əldə etdikləri uğurlu nəticələr bunu bir daha təsdiqləyir. Azərbaycanın mötəbər idman yarışlarına uğurla evsahibliyi etməsi də respublikamızın idman ölkəsi olduğunu sübut edir. Bu yarışların təşkili çoxlu sayda azarkeşin ölkəmizə təşrif buyurmasına, eyni zamanda, respublikamızda turizmin və iqtisadiyyatın inkişafına, Azərbaycanın dünyada daha da tanınmasına təkan verir.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin qayğısı sayəsində ölkədə idman və bədən tərbiyəsi sahəsində sürətli inkişaf prosesi gedib, böyük uğurlar əldə edilib. Bakıda və bölgələrdə 40-dan çox olimpiya idman kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub.

2015-ci ildə Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına evsahibliyi edib. 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda ikinci yeri tutub, 21-i qızıl olmaqla 56 medal qazanıb. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan komanda hesabında birinci yeri tutub.

Çıxışlarda qeyd olunub ki, bu cür kütləvi idman tədbirləri uşaqların idmana olan marağını artırır, fiziki və mənəvi sağlamlığını təmin edir.

Bayram tədbirinin sonunda tamaşaçılara tanınmış müğənnilərin ifalarından ibarət konsert proqramı təqdim olunub.

İlk dəfə Xaçmazda keçirilən idman bayramının respublikamızın digər bölgələrindəki bütün olimpiya idman komplekslərində təşkili nəzərdə tutulub.

# İşçilərin əməkhaqları Vahid Tarif Cədvəli əsasında ödənilən sahələr hansılardır?

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2019-cu il iyunun 18-də imzaladığı sərəncamla bu il sentyabrın 1-dən respublikamızda minimum aylıq əməkhaqqının məbləği artırılaraq 180 manatdan 250 manata çatdırılacaq.

Sərəncamın icrası olaraq Nazirlər Kabinetinin bu il avqustun 7-də verdiyi 345 nömrəli qərarına uyğun olaraq əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında ödənilən işçilərin tarif (vəzifə) maaşları orta hesabla 40 faizədək artırılaraq həmin işçilər üçün yeni VTC təsdiq edilib. Əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, yeni VTC-də tarif (vəzifə) maaşları əməyin ödənilməsinin 1-19-cu dərəcələri üzrə 250-906 manat intervalında müəyyən edilib və həmin VTC-nin tətbiqinə bu il sentyabrın 1-dən başlanacaq.

Dövlət başçısının qeyd edilən sərəncamının icrası olaraq, Nazirlər Kabinetinin bu il avqustun 7-də verdiyi 346 nömrəli qərarı ilə büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri də orta hesabla 40 faiz artırılıb. Təhsilverənlərin və təhsilalanların kateqoriyasından asılı olaraq müəyyən edilmiş saathesabı ödəniş məbləğlərinin tətbiqi bu il sentyabrın 1-dən həyata keçiriləcək.

Həmçinin sərəncamın icrası olaraq, dövlət orqanlarında çalışan, lakin dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi və s.) aylıq vəzifə maaşları orta hesabla 40 faizdən çox artırılaraq dövlət orqanlarının kateqoriyaları üzrə 260-310 manat intervalında müəyyən edilib. Həmin aylıq vəzifə maaşlarının tətbiqinə də sentyabrın 1-dən başlanacaq.

# Naxçıvanda Beynəlxalq Gənclər Günü qeyd edilib

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan gənclər və idman siyasəti bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir.



AZƏRTAC xəbər verir ki, bu fikir 12 avqust - Beynəlxalq Gənclər Günü ilə əlaqədar keçirilən tədbirdə səsləndirilib.

Naxçıvan şəhərində təşkil olunan tədbirdə əvvəlcə gənclərə “Cinemaplus”da Naxçıvan televiziyasının hazırladığı qısametrajlı film nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəisi Canməmməd Canməmmədov çıxış edərək gənclərə muxtar respublikada aparılan gənclər siyasəti və fiziki imkanları məhdud yeniyetmə və gənclər üçün yaradılan şərait haqqında məlumat veriblər.

Qeyd edilib ki, nümunəvi və vətənpərvər gəncliyin formalaşması, gənclərin istedad və intellekt potensiallarının inkişaf etdirilməsi, idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanın təbliği muxtar respublikada gənclər və idman siyasətinin prioritet istiqamətləri kimi diqqət mərkəzində saxlanılır.

Bildirilib ki, 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda 12 avqustun Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Həmin gündən etibarən Azərbaycanda da bu gün hər il qeyd olunur.

55 gəncin iştirakı ilə keçirilən görüşdə gənclər üçün çay süfrəsi təşkil olunub.

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Gənclər Fondunun və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

# “ASAN Yay Festivalı” davam edir

“ASAN Könüllüləri” Təşkilatı və “ASAN Radio”nun birgə təşkilatçılığı ilə növbəti “ASAN Yay Festivalı” keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Mingəçevir “ASAN Həyat” kompleksində keçirilən festival həm yerli, həm də digər rayon və şəhərlərdən gələn sakinlər tərəfindən rəğbətlə qarşılanıb. Konsertdə müğənnilər Roza Zərgərli, Zenfira İbrahimova, Zeynəb Həsəni, Aydın Sani və DJ Bazaur çıxış ediblər. Həmçinin “ASAN Könüllüləri” tərəfindən rəqs nümunələri, ifalar təqdim olunub. Konsertdən hazırlanan xüsusi proqram yaxın günlərdə “ASAN Radio”da təqdim ediləcək.

“ASAN Yay Festivalı”na “ASAN xidmət”in Rəqəmsal Könüllüləri də qatılıblar. Onlar festival iştirakçılarını elektron hökumət, elektron dövlət xidmətləri, elektron ödənişlər və elektron xidmətlərdən istifadənin üstünlükləri barədə məlumatlandırıblar.

“ASAN Həyat” konsepsiyası “ASAN xidmət” mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərini də özündə birləşdirir. Belə ki, vətəndaşlar operativ və nümunəvi xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edirlər. “ASAN Həyat” kompleksi vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.

Xalq sənətkarlarımız

O, nakam aşiq idi... 14 yaşında qəlbinə düşən sevgi atəşinin qoru ömrünün sonuna qədər ona dinclik vermədi, ahı dağları yandırdı, daşlarda əks-səda verdi... Çağlayıb daşan təbi ilk məhəbbətinin carçısı oldu... Sinəsinə basdığı quru odun parçası dilə gəldi, yanıqlı-yanıqlı inlədi, nazlı nigarın hicranından gileyləndi... Ürəyinin alovu qəlbindən süzülərək dodağında gəraylıya, qoşmaya, təcnisə, müxəmməsə, divanəyə çevrildi... Məcnun yolu ilə getdi, eşqin müqəddəs qapısında səcdəyə durdu... Haqq aşiqi oldu...

*Qəfil qəza məni saldı toruna,*
*Açıq yolu bağlar qalan mən oldum.*
*Ehtiramla səcdə edib varlığa,*
*"Lahu" deyə çağlar qalan mən oldum...*



# Nakam haqq aşiqi - Xaspolad Coşqun

Qarabağın ustad aşıqlarından olan Aşıq Xaspolad Coşqundan danışırıq... Kiçik yaşlarından şeir yazmağa meyil edən Xaspolad atası ilə kəndə gələn aşıqların məclislərinə gedir, onları dinləməkdən doymurdu. Xatirələrində isə onu "aşıq" edən əsl səbəbdən yazırdı: "Həqiqi təb o adamda yaranır ki, erkən yaşlarında saf bir məhəbbətlə sevir və sevilir, lakin istəyinə nail ola bilmir. Mən də belə olmuşam. Ona görə də bütün yaradıcılığımın səbəbini və həmişə çağlayıb daşan təbimin ilkin mənbəyini bunda görürəm. 1935-ci ildə sevdiyim qız ailələri ilə birlikdə kəndimizdən köçüb başqa yerə getdilər. Hər şey tarimar oldu, fikrim-zikrim qarışdı, dünya gözümdə qaraldı. Həmin vaxtlar Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasını tapıb oxudum və əzbərlədim. Eşqin müqəddəsliyini həmin dastandan öyrəndim. Saza-sözə meyilim o qədər idi ki, sazım olmadığından odun parçasının üzərinə sim bağlayıb ondan istifadə edirdim. Kənd arasında, bulaq başında, bağlarda çalıb-çağırırdım. 1936-cı ildə üç simli bir cürə aldım. İki sim də özüm əlavə qoşdum. 1938-ci ildə isə cürəni tarla əvəz etdim".

## Valeh nəslindənəm, cəsarətim var

Ömrünün 80 ilini yazıb-yaratmağa, çalıb-çağırmağa həsr edən Aşıq Xaspolad Coşqun 1919-cu il martın 20-də Ağdam rayonunun Abdal kəndində anadan olub. Gənc yaşlarından ustad aşığın saza-sözə güclü həvəsi olur. O, bədahətən qoşmalar, gəraylılar qoşar və onları sazla oxuyardı. Şeirə, sənətə olan bu həvəsin ona ulu babası Aşıq Valehdən irsən keçdiyini söyləyirlər. O, Kərbalayı Şəfi Aşıq Valehin kötükcəsidir və bu barədə şeirində də məlumat verir.

*Hünər meydanında dəyanətim var,*
*Aşıqlıq elmimdə öz adətim var*
*Valeh nəslindənəm, cəsarətim var,*
*Coşğun Xaspoladam, Qarabağlıyam.*

İlk təhsilini Abdal ibtidai məktəbində, sonra isə Gülablı yeddiillik məktəbində alan ustad aşığın ana tərəfində xeyli din xadimləri olub. Babası Axund Molla Xəlil, Molla Əsəd, dayıları Molla Abbas, Molla Hüseyn, Molla Xəlil (Axund Molla Xəlilin nəvəsi) və başqaları Nəcəfül-Əşrəfdə təhsil almışdılar. Bu səbəbdən də onların əhatəsində böyümüş Xaspolad dini savada da yiyələnmişdi. Dini o qədər güclü bilirdi ki, hətta din alimləri belə onunla mübahisə etməkdən çəkinirdilər.

1939-cu ildə hərbi xidmətə yollanan Aşıq Xaspolad 1941-ci ildə müharibənin ilk günlərindən odun, alovun içərisinə atılır. Elə ilk döyüşlərin birində top mərmisinin zərbəsindən yaralanır və gözləri tutulur. O, Lvov şəhərində bir müddət hərbi hospitalda müalicə olunsa da, gözləri açılmır. 1942-ci ilin iyun ayında hərbidən tərxis olunub evlərinə dönür. Doğma torpağından aldığı qüvvətin möcüzəsindən gündən-günə səhhəti yaxşılaşır, gözlərinə nur gəlir. Müharibəyə yenidən qayıtmaq istəsə də, səhhəti buna imkan vermir. Az keçmir ki, Aşıq Xaspolad Abdal məktəbinə hərbi müəllim təyin edilir, 1944-cü ildə isə ailə həyatı qurur.

Sənətinin mahir bilicisi Aşıq Xaspolad dəfələrlə bu meydanda özünü sınamış, Aşıq Hüseyn Saraçlı, Aşıq Pənah, Aşıq Məcid, gürcüstanlı şair Teymur, qocaman Dərviş, Aşıq Məhəmməd, Aşıq Zeynal, gəncəli Aşıq Qədir, Mirqələm, həkim Şahlar, Aşıq Tərlan, Aşıq Hilal, Aşıq Soltan, Aşıq Nübar Mədətova ilə deyişib. Aşıq Xaspolad aşıqlığının müxtəlif dövrlərində üzbəüz deyişmələrdə ya qalib gəlmiş, ya da tərəf-müqabilinin təklifini nəzərə alıb mehribanlıqla ayrılmışdı.

Aşığın xatirə dəftərində olan bir nümunədə deyilir: "1950-ci ilin mart ayında Mingəçevirdə yenə də aşıqlar bir yerdə cəmləşib çalıb-çağırırdılar. Növbə Zeynal adlı bir aşığa çatdı. O, eşitmədiyim bir təcnis oxudu. Mən bu təcnisin kimin olduğunu soruşdum. Dedi ki, dayımındır. Soruşdum, dayın kimdir, dedi ki, Aşıq Şəmşir. Dedim, Aşıq Şəmşir kimdir? Həqiqətən də Şəmşir haqqında eşitməmişdim. Zeynal kinayə ilə dedi: "Bəs sən necə aşıqsan ki, dayım haqqında eşitməmisən?" Mən Zeynaldan Aşıq Şəmşirin ünvanını öyrənib ona bir məktub yazdım. Bu məktubdan bir ay keçdi, cavab gəlmədi. Aşıq Şəmşirə ikinci məkrubu "Cavab ver" şeiri ilə yazdım. Xeyli keçəndən sonra Şəmşirin oğlundan bir məktub aldım. "Qulaq as" rədifli bir şeirlə mənə öyüd-nəsihət yazmışdı. Mən üçüncü dəfə üç qatar "Qulaq as" başlığı altında şeirlə yenə bir məktub yazdım. Bir sözlə, aşıqlıq sənətində əsl cəsarəti bircə Aşıq Şəmşirdə gördüm. O, sazını da götürüb Mingəçevirə gəldi. Lakin mənimlə deyişmədi, dedi ki, "sən elə bir ocaqdansan ki, aşıqlar səninlə deyişməyə yox, səni ziyarətə gəlməlidir".

Aşığın qıfılbəndləri hələ də aşıqlar tərəfindən açılmamış qalır. Öz deyişmələri ilə bağlı xatirələrinin birində aşıq söyləyir: "İlk dəfə 1938-ci ildə Abdal kəndində Aşıq Səyyafla deyişmişəm. Göyçədən gəlmişdi. Üç saatlıq deyişmədən sonra mən onu Aşıq Ələsgərin "Oldu" bağlaması şeiri ilə bağladım".

## Mirzə İbrahimov Aşıq Xaspoladı Bakıya çağırır

Aşıq Xaspoladın ocağına onunla görüşmək üçün Mirzə İbrahimov, dramaturq Məcid Şamxalov, Şərqin ilk filosof qadını Şükufə Mirzəyeva, yazıçı Əlfi Qasımov, xalq şairləri Tofiq Bayram, Qabil, Bəxtiyar Vahabzadə, Famil Mehdi, Şahmar Əkbərzadə, Aşıqlar Birliyinin sədri Hüseyn Arif, respublikanın xalq artistləri - tarzən Qurban Pirimov, Xan Şuşinski, Əbülfət Əliyev, Sara Qədimova, Aşıq Şəmşir, Aşıq Hüseyn Saraçlı, Aşıq Soltan həyat yoldaşı Qəndab xanımla, yazıçı Mustafa Çəmənli, folklorşünas Mahmud Allahmanlı və daha neçə görkəmli şəxslər gəlib.

Bu tanınmış elm, incəsənət adamları ustad aşığı dinləməkdən doymur, onun maraqlı söhbətlərinə saatlarla qulaq asırdılar. 1958-ci ildə respublika Ali Sovetinin sədri Mirzə İbrahimov Qurban Pirimovla birlikdə Abdal-Gülablı kəndinə gəlir. O, Qurban Pirimovun məsləhəti ilə Aşıq Xaspoladla görüşür. Elə həmin ilin oktyabr ayında Aşıq Xaspoladı Qurban Bakıya çağırtdırır. Onu Nizami adına Ədəbiyyat İnstitutuna folklorşünas Məmmədhüseyn Təhmasibin yanına göndərir. Məmmədhüseyn Təhmasib Radio Komitəsinin sədri Teymur Əliyevlə danışır. Aşıq Xaspoladın "Valeh və Taleh" dastanını müəllifin ifasında lentə alırlar. Akademik Həmid Araslının iştirakı ilə aşığın dörd dastanı da lentə alınır.

Lakin Aşıq Xaspolad imkansızlıq, diqqətsizlik və bir sıra səbəblərdən şeirlərini və dastanlarını çap etdirə bilmir. Yalnız 1969-cu ildə onun Famil Mehdi ilə birlikdə topladığı, Aşıq Valehin yaradıcılığına aid olan "Alçaqlı ucalı dağlar" kitabı çap olunur. 1990-cı ildə Aşıq Xaspoladın 17000 nüsxə ilə "Taleh və Həqiqət" adlı kitabı işıq üzü görür. 1999-cu ildə ustadın "Qəlbimdə nisgilli hekayətim var" adlı ikinci kitabı nəşr olunur. Bütün ömrünü haqq aşığı Aşıq Valehin yaradıcılığının toplanmasına sərf edən Dədə Xaspoladın ev arxivində özünün çap olunmamış çoxlu dəyərli yazıları və Aşıq Valeh haqqında topladığı sənədlər indi də saxlanılır. Onun ulu babası Aşıq Valeh haqqında geniş məlumatı vardı. Bu barədə Mustafa Çəmənlinin qeydləri də maraqlıdır: "Xaspolad kişi iri bir qovluğu qarşıma qoyub, - mən istəyirəm babamın kitabı bu sayaq çıxsın, - dedi. Qovluğu açıb əlyazmanı vərəqlədim, gördüm ki, Xaspolad kişi Aşıq Valehin hər şeirinin yaranma tarixini, hadisə və rəvayəti də toplayıb. Doğrudan da, Aşıq Valehin yaradıcılığı bu rəvayət və hadisələrlə birgə çap olunsa, daha təsirli, daha bitkin olardı".

Bu kitabda aşığın yüz qırxdan artıq qoşması, on gəraylısı, on altı qəzəli, doqquz deyişməsi, dörd müxəmməsi, beş dastanı toplanmışdır. Dastanlardan ikisi ("Taleh və Həqiqət", "Valeh və Taleh") Aşıq Valeh və oğlu Taleh haqqında məlumat verir. Ustad sənətkarın səkkiz dastanı və xeyli şeirləri var. Ustadnamələr, gəraylılar, qoşmalar, müxəmməslər, divanilər, hərbə-zorbalar, həcvlər, qıfılbəndlər yaradıcılığında geniş yer tutur. Onun "Bülbüllə", "Aşıq Valehin məzarı ilə", "Dağlarla", "Molla ilə", "Mələklə", "İnsanla" deyişmələri olduqca maraqlıdır.

## "Nənə qızlar"ın ustad dədəsi...

1950-ci ildən Aşıq Xaspolad Aşıqlar Qurultayına nümayəndə seçilir. Yaradıcılıq uğurları getdikcə artan aşığın 1961-ci ildə keçirilən III Aşıqlar Qurultayında iştirakı da əlamətdar olur: "Qurultayda iştirak etdikdən sonra Aşıq Şəmşirlə birgə Azərbaycan Pedaqoji İnstitutunda çıxışa dəvət olundum. Çıxışım müəllimlər və tələbələr tərəfindən rəqbətlə qarşılandı, yenidən çıxış üçün səhnəyə dəvət olundum. İnstitutun rektoru, mərhum Mehdixan Vəkilov məni təbrik edib minnətdarlığını bildirdi".

Çoxşaxəli yaradıcılığa malik ustad həm də mədəniyyət sahəsində çalışıb. O, yaşadığı kənddə yaradılmış Mədəniyyət Evinə uzun müddət başçılıq edib. 1983-cü ildə Gülablı kənd Mədəniyyət Evinin müdiri Aşıq Xaspolad Mirzəliyevə Ağdam Rayon Mədəniyyət Evindən tapşırıq gəlir - bütün mədəniyyət evlərinin nəzdində folklor ansamblları təşkil olunmalıdır. Xaspolad kişi Xavər Nuruyevanın bu işi layiqincə yerinə yetirəcəyini düşünür. Beləliklə, kənddə səsi, istedadı, qabiliyyəti olan on yeddi qızı yığıb 1984-cü ildə məşhur "Nənə qızlar" folklor ansamblını yaradırlar. Folklor ansamblının keçirdiyi tədbirlərin senarisini Aşıq Xaspolad özü yazırdı. Çox təəssüf ki, bu bədahətən deyilən şeirlər vaxtında yazıya alınmadığından yalnız ansamblın qızlarının yaddaşından yazıya köçürülüb. Uzun illər səhnədə xalqımızın keçmişini, məişətini, adət-ənənəsini öz ifalarında yaşadan "Nənə qızlar" ansamblı paytaxt Bakıda, respublikada və digər ölkələrdə elə bir tədbir yox idi ki, iştirak etməsin. İyirmi nəfər üzvü olan ansambl üç dəfə keçmiş Ümumittifaq Folklor Yaradıcılığı Festivalının iştirakçısı olmuş, dəfələrlə Moskvadan vətənə laureat kimi qayıtmışdı. Ansamblın bəzi üzvləri qızıl medala layiq görülmüşdü.

## "Qəm gəldi qəm üstə, mənə pay oldu..."

Təəssüf ki, saza və sözə sadiq ustad sənətkar Aşıq Xaspoladın taleyinə məcburi köçkünlük də yazılmışdı və ömrünün sonuna qədər Bakıda cənnət-məkan Abdal-Gülablının həsrəti ilə yaşamağa məcbur olmuşdu. 2000-ci ildə 81 yaşında haqq dünyasına qovuşan ustad sənətkar elə doğulduğu Ağdamda, Xındırıstan kənd qəbiristanlığında dəfn olunur.

*Coşqun Xaspoladam, ömrüm zay oldu,*
*Çeşmimin yaşından bulaq çay oldu,*
*Qəm gəldi qəm üstə, mənə pay oldu,*
*Cavan vaxtı ağlar qalan mən oldum...*

Tezliklə Qarabağımızın, Abdal-Gülablının düşmən tapdağından azad olmasını və Aşıq Xaspoladın da ruhunun şad olmasını diləyirik.


**Almara NƏBİYEVA,**
**filologiya üzrə fəlsəfə doktoru**


# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 16 fevral, 01 mart, 03 aprel, 23 aprel, 08 may, 29 iyun, 16 iyul və 26 iyul 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, LOT-2 Ehtiyat hissələrinin satın alınması üzrə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 avqust 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 30 avqust 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +99412 431-47-67(2249).

***Tender komissiyası***

## Qurban bayramı günlərində hava əsasən yağmursuz olacaq

Qurban bayramı günlərində gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin AZƏRTAC-a verdiyi məlumata görə avqustun 11-13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin avqustun 11-də səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı, güclü şimal-qərb küləyinin əsəcəyi, axşam bir qədər mülayimləşəcəyi gözlənilir. Küləyin sürəti saniyədə 15-20, arabir 23-28 metr olacaq, gündüz yarımadanın bəzi yerlərində arabir 30-35 metr/saniyəyədək güclənəcək. Sonrakı günlərdə şimal-şərq küləyi əsəcək, gündüz saatlarında cənub-şərq küləyi ilə əvəzlənəcək, sürəti 3-8, arabir 10-12 metr/saniyə olacaq. Havanın temperaturu avqustun 11-də bir qədər sərin, gecə 20-23°, gündüz 24-27°, sonrakı günlərdə 28-31° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Avqustun 11-də arabir güclənən şimal-qərb küləyi sonrakı günlərdə zəif şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 30-35° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin avqustun 11-də gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı, ayrı-ayrı yerlərdə dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, 5-10, ayrı-ayrı yerlərdə arabir 25-30 metr/saniyəyədək güclənəcək, sonrakı iki gündə mülayim şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 16-21° isti, bayram günlərində 25°-dək isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Qərb küləyi əsəcək, avqustun 11-də arabir 20-25, ayrı-ayrı yerlərdə arabir 30-35 metr/saniyəyədək güclənəcək, sonrakı günlərdə mülayim şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında avqustun 11-də hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Avqustun 12-13-də gündüz saatlarında əksər rayonlarda hava əsasən yağmursuz olacaq.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin avqustun 11-də səhər bəzi şərq rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında avqustun 11-i və 13-də səhər və gündüz saatlarında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dağlıq ərazilərdə dolu düşəcəyi ehtimalı var.

# Beynəlxalq aləm

## Tramp: "ABŞ Çin ilə ticarət sazişinə hazır deyil"



ABŞ bir sıra məsələlərə dair fikir ayrılığı olduğuna görə Çinlə ticarət sazişi bağlamağa hələ hazır deyil. Bu bəyanatla ABŞ Prezidenti Donald Tramp çıxış etmişdir.

Tramp bildirmişdir ki, "Çin ticarətlə əlaqədar nəsə etmək istəyir, amma mən hələlik hansısa addım atmağa hazır deyiləm". O əlavə etmişdir ki, Vaşinqton hələlik Çinin "Huawei" şirkəti ilə əməkdaşlıq etmək niyyətində deyil, lakin ticarət sazişi əldə edilsə, vəziyyət dəyişə bilər.

İki ölkə arasında ticarət müharibəsi ötən həftə Tramp Çin məhsullarına əlavə rüsumlar tətbiq etdikdən sonra kəskinləşmişdir. Buna cavab olaraq ÇXR ABŞ-dan kənd təsərrüfatı məhsulları almağı dayandırmışdır.

## "Lekima" Şanxayı vurdu



Çin Meteoroloji Bürosu srağagün səhər "Lekima" supertayfununun yaxınlaşması ilə əlaqədar həyəcan təbili çalmışdı. Gözlənilən təbii fəlakət Tayvanda aviasiya reyslərinin ləğv olunmasına, adada bazar və müəssisələrin bağlanmasına gətirib çıxarmışdı. Şanxayda dəmir yolu kassaları istirahət günləri üçün bilet satışını dayandırmışdı.

Artıq "Lekima" Şanxayı vurmuşdur. Şəhər ətrafında təxminən 16 min sakin köçürülmüşdür. Gözlənildiyinə görə, şəhərdə güclü külək və yağış sabahadək davam edəcək.

## KXDR daha iki raket sınağı keçirdi

Şimali Koreya Yapon dənizi istiqamətində tipi müəyyən edilməmiş iki raket buraxmışdır. Bu barədə "Yonhap" agentliyi hərbi mənbələrə istinadən xəbər verir.



Raketlər KXDR-in şimal-şərqində yerləşən Hamhın şəhərindən atılmışdır. Cənubi Koreyanın Müdafiə Nazirliyi hadisələrin inkişafını diqqətlə izləyir.

Xəbər verildiyi kimi, KXDR avqustun 6-da ölkə lideri Kim Çen İnin şəxsi rəhbərliyi altında yeni taktiki idarəolunan raketləri sınaqdan çıxarmışdı. İki raket təxminən 450 kilometr məsafə qət edərək Yapon dənizindəki hədəfləri vurmuşdu. Kim Çen İn sınağı müşahidə etdikdən sonra bildirmişdi ki, raket buraxılışları ABŞ və Cənubi Koreyanın keçirdiyi birgə hərbi təlimlə əlaqədar xəbərdarlıq idi.

ABŞ və Cənubi Koreya avqustun 5-də birgə komandanlıq-qərargah təlimlərinə başlamışdır. İlkin məlumata görə, manevrlər avqustun 20-dək davam edə bilər.

## Britaniya iqtisadiyyatında tənəzzül



Bu ilin aprelindən iyununadək Böyük Britaniya iqtisadiyyatı 0,2 faiz azalmışdır. BBC Milli Statistika İdarəsinə istinadən xəbər verir ki, bu, 2012-ci ildən bəri ən pis göstəricidir.

Gözlənilməz azalma ilin birinci rübündə iqtisadi artımın sürətlənməsindən sonra Brexitlə əlaqədar maliyyə ehtiyatlarının çoxalması üzündən baş vermişdir. Statistika idarəsinin nümayəndəsi Rob Kent-Smit məlumat vermişdir ki, istehsalın həcmi aşağı düşmüş, inşaat sektoru zəifləmişdir. O əlavə etmişdir ki, "adətən iqtisadiyyatda aparıcı rol oynayan xidmət sektoru praktiki olaraq artım vermir".

İqtisadçılar ikinci rübdə iqtisadiyyatda azalma proqnozlaşdırmırdılar. İqtisadiyyatda birinci rübdə 0,5 faizlik artım müşahidə edilmişdir.

## Myanmada torpaq sürüşməsi 29 nəfərin ölümünə gətirib çıxardı



Myanmanın Mon ştatında torpaq sürüşməsi nəticəsində azı 29 nəfər həlak olmuş, 47 nəfər yaralanmışdır. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Xilasetmə xidməti məlumat vermişdir ki, torpaq sürüşməsində palçıq və dağıntılar altında qalmış meyitləri çıxarmaq və sağ adamları aşkarlamaq məqsədilə axtarış-xilasetmə əməliyyatları həyata keçirilmişdir.

Torpaq sürüşməsi ştatın qəsəbələrinin birində srağagün baş vermişdir. Nəticədə yaşayış evləri torpaq altında qalmışdır.

## Liviyada BMT-nin iki əməkdaşı öldürülüb




Liviyanın şərqindəki Benqazi şəhərində avtomobilə yerləşdirilmiş bombanın partlaması nəticəsində Birləşmiş Millətlər Təşkilatının bu ölkədə fəaliyyət göstərən missiyasının iki əməkdaşı ölüb.

Bu barədə məlumatı Liviyada fəaliyyət göstərən həkim qrupu verib. Agentliyin reportyoru Benqazi hospitalında həlak olan şəxslərin sənədləri ilə tanış olub və onların BMT-nin Liviya Missiyasının (UNSMIL) əməkdaşları olduqlarını müəyyən edib.

UNSMIL-in sözçüsü Jan Al Alam BMT-nin əməkdaşlarının həlak olması xəbəri ilə bağlı sualları cavablandırmayıb.

## Zaqatala rayonunda üçüncü dəfə zəlzələ olub

Avqustun 10-da Zaqatala seysmoloji stansiyasından 14 kilometr cənub-qərbdə Zaqatala ərazisində maqnitudası 3.7 olan zəlzələ baş verib.

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, yeraltı təkanlar yerli vaxtla saat 15:22-də qeydə alınıb.

Ocağı 7 kilometr dərinlikdə yerləşən zəlzələ episentrdə 4, yaxın ətraf rayonlarda 3 bala qədər hiss olunub.

Xatırladaq ki, dünən Zaqatalada saat 11:35-də maqnitudası 4.9, saat 14:00-da isə 3.4 olan yeraltı təkanlar qeydə alınıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə əzizi

**HƏŞİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iş yoldaşları Məcid Zeynalova atası

**ZEYNAL ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəmkirdən Abdulla Sadıqov, Rafiq Məmmədov və Şahin Pənahov Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzinin müdiri Fərid Orucova əzizi

**CÜMŞÜD ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az, az.reklam@mail.ru, azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9002
Sifariş 2611
Qiyməti 40 qəpik